UOT 1 (091)
https://doi.org/10.59849/2710-0820.2024.2.155

**Səadət Qarayeva**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı*
*Azərbaycan*
*seadet2909@gmail.com*

# XURŞİDBANU NATƏVAN – AZƏRBAYCAN DÜŞÜNCƏ TARİXİNDƏ YERİ VƏ ROLU

***Açar sözlər:*** *Şairə, maarif, əxlaqi keyfiyyətlər, ədəbiyyat, ziddiyyətlər*

Əsərlərinin əksəriyyətini Məhəmməd Füzuli ədəbi təsiri ilə yazan Natəvan irsi sənətkarlıq baxımından kamil nümunələr hesab edilir. Xurşidbanu Natəvan sənətkarlığının başlıca səciyyəsini incə mətləbləri, dərin hissləri özündə ehtiva edən qüvvətli lirika, fikir əlvanlığı və məna dərinliyi ilə seçilən əsərlər təyin edir. Səməd Vurğun şairənin yaradıcılığını yüksək qiymətləndirərək onun şeirlərini “feodal dünyasına qarşı etiraz formalarından biri”, qəzəllərindəki yanıqlı şikayətlərini isə “böyük insan kədəri” adlandırmışdır. (10,6) Həqiqətən, şairənin sənətkarlığı hər şeydən əvvəl, qələmə aldığı mövzunun gözəlliyində, tərənnüm etdiyi varlığın, hadisələrin həyat həqiqətlərinə uyğunluğunda, məna dərinliyində özünü göstərir.

Xurşidbanu Natəvan Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı, İbrahimxəlil xanın nəvəsidir. Xurşidbanu ailənin yeganə övladı, həm də Qarabağ xanlığının sonuncu vərəsəsi olduğu üçün onu sarayda “Dürrü yekta” (Tək inci), el arasında isə “Xan qızı” adlandırırdılar. Natəvanın bir şairə kimi dünyagörüşünün, bədii zövqünün formalaşmasında qohumları Qasım bəy Zakir, Mirzə Camal, Mirzə Adıgözəl, Əhməd bəy Cavanşir kimi şəxsiyyətlər və bibiləri Ağabəyim ağa və Gövhər ağanın da şeir yazmaları, əmisi Əbülfət ağa Tutinin, anasının yaxın qohumları Kəlbəli xan Müsahib və Fətəli xan Halinin şair olması onun şeir-sənət aləminə könül verməsinə səbəb olmuş, öz yaradıcılıqları, ədəbi söhbətləri, ağıllı məsləhətləri ilə Xurşidbanuda şeirə, sənətə olan həvəsi qüvvətləndirmiş, onda dərin ehtiram oyatmışlar.

Şairə əvvəlcə öz şeirlərini "Xurşid" imzası ilə yazardı. Həmin qəzəllərdə Xurşidbanunun o dövrdəki əhvali-ruhiyyəsi, təfəkkür və düşüncə tərzi öz əksini tapmışdır. Daha çox mənəvi tənhalıq və kimsəsizlikdən əziyyət çəkən şairənin insanları daima azad və xoşbəxt görmək arzusu ilə qələmə aldığı şeirləri dərin ictimai məna kəsb edir. Natəvan şöhrətli şairə kimi tək Azərbaycanda deyil, başqa ölkələrdə də tanınmışdır. Buna sübut olaraq Leypsiqdə 1867-ci ildə nəşr olunmuş "Əşari-müərayn-Azərbaycan" adlı Adolf Berjenin kitabında, Mir Möhsün Nəvvabın "Təzkirəyn-Nəvvab" adlı əsərində, Məhəmməd ağa Müştərinin "Riyazül-aşiqin" əsərində və Ziyaəddin ibn Fəxrəddinin 1904-cü ildə Orenburqda nəşr etdiyi "Məhşur xatunlar" təzkirəsində Natəvan haqqında geniş məlumatın olmasını qeyd etmək yerinə düşərdi. (13,6)

Dövranın haqsızlığı, şəxsi münasibətlərindəki ziddiyyətlər, həyatındakı ağır itkilər şairəni vaxtsız qocaltmış, ağlamaqdan Natəvanın gözlərinin nuru getmiş, bədəni taqətdən düşmüşdü. Elm və maarif adamlarına göstərdiyi hörmət və qayğının göstəricisi olaraq Xurşidbanu xəstə olan zaman ona xeyli sayda şeirlər həsr edilərək şairəyə şəfa diləyirdilər. Onlardan biri Q. Zakirin həsr etdiyi şeir nümunəsini göstərmək olar.

Ey burci-səltənət, mahi-ənvəri.
Düşməyəsən görüm ziyadan səni!
Gecə-gündüz budur haqdan diləyim,
Hifz eləsin yaman bəladan səni! (10,26)

Şeirin son bəndində Natəvan xeyirxahlığının bariz göstəricisi olaraq müəllif şairənin ona etdiyi yaxşılıqlar, göstərdiyi hörmət üçün hədsiz minnətdarlığını bildirərək söyləyirdi:

Şikəstə Zakirə veribsən əmək,
Əmək bilməyəni kor etsin nəmək!
Necə ki, baqidir, həyatı gərək,
Unutmaya xeyir-duadan səni. (10,27)

M.F. Axundov forma və üslub etibarı ilə bu əsərə uyğun bir mənzum məktub yazaraq Zakirə göndərmişdi. Real-bədii boyaların təsvir olunduğu şeirdə Natəvanın xəstə olmasından kədərləndiyini bildirən M.F.Axundov Xan qızına uzun ömür, can sağlığı arzu edir və aralarındakı incikliyə görə ondan üzr istəyirdi:

Mənim vardır, gərçi, bir az günahım,
Sən get hüzuruna, ol üzirxahım.
De, ey padşahım, ey qibləgahım,
İncimə, gər etdim şikayət izhar. (10,29)

Şairə səhhətinin pisləşdiyi bir dönəmdə Mir Möhsün Nəvvaba göndərdiyi bir mənzum məktubda öz vəziyyətini belə təsvir edirdi:

Qəmi-əyyamidən çox natəvanəm,
Əliləm, naxoşəm, əfsürdə canəm. (1,526)

Şair Mirzə Sadıq Sadiqin xəstə şairənin son günlərini səciyyələndirən şeirindən bir parça:

Yaman günə qalıb, indi bu binəva necə gör,
Bəlavü möhnəti-hicranə mübtəla, necə gör.
(10,156)

Şairənin həyatında əziyyətli günlər çoxaldığı zaman anasının dərdli halına yanan, onun faciəli həyatından qüssələnən Xanbikə "Ümid edirəm qibleyi-mükərrəmələr nəzərinə yetsə, əfv edərlər" başlığı altında yazdığı mənzum məktubunda anasının qəlbindəki ağrı-acıları dağıtmaq üçün:

Səbr et, dəxi düşmə fəqanə,
Oğlan gərək hicrana dayanə.(10,155)

- deyərək anasını zamanın möhnət və cəfalarına mərdliklə tab gətirməyə, dözümlü olmağa çağırırdı.

Həyatının son illəri qüssəli keçən Natəvan əbədi ayrılığın yaxınlaşdığını duyurdu. Və o, sanki dünyadan nigaran, taleyindən incik və dövrandan küskün halda gedirdi. Onun ölümü ziyalıları, şair və ədibləri ürəkdən kədərləndirmiş, bu hadisədən təsirlənən bir çox şairlər Natəvanın ölümü münasibətilə mərsiyə və növhələr yazmışlar. Bu böyük itkidən yalnız Azərbaycan şairləri, maarifpərvərləri deyil, Qafqazın ictimai dairələri də kədərlənirdi. "Qafqaz" qəzeti təəssüflə yazırdı: "Dünən oktyabrın 1-də Şuşada Qarabağ xanı general-mayor Mehdiquli xanın qızı şairə və yazıçı knyaginya Usmiyeva vəfat etmişdir".(10,156)

Şairənin ölümü münasibətilə yazılan şeirlər içində Həsən Yüzbaşıyevin şeirini xüsusi qeyd etmək istərdik. Şairənin vəfatına həsr etdiyi şeirində onun vəfatını cənnət məclisində qürub edən günəşə bənzədərək yazırdı:

Həsən besali-vəfatəş rəqəm nəmud çinin,
Günün bebəzmi-ərəm afetab penhan şod.
(10,9)

Buna bənzər ruh halına Məhəmməd ağa Müştərinin Xurşidbanunun vəfatına həsr etdiyi şeirində də rast gəlirik. Şair Natəvanın ölümünü həyata işıq verən Günəşin çıxması ilə eyni vaxtda nur saçan başqa bir Günəşin batmasına bənzədərək yazırdı:

Sobh çün xurşid-e rəxşan rox nəmud əz
kuhsar,
Şod nəhan-Xurşidbanu əz nəzər xurşidvar,
Əllah-əllah, in çe Xurşid əst ponhan şod
ze çeşm,
Şod cahan tarik dər çeşməm ço yek məst-e
qubar? (10,157)

Şair Mirzə Rəhim Fənanın farsca yazdığı mərsiyədə, Həsən Yüzbaşıyev özünün "Dər vəfate-Xurşidbanu bəyim mərhum" adı ilə yazdığı şeirində də Xurşidbanun ölümündən doğan kədər, təəssüf hissləri real, səmimi boyalarla əks etdirilmişdir.

Qeyd etmək istərdik ki, şairlər haqlı olaraq Natəvanın ölümünə həsr etdikləri mənzumələrində onun vəfatını ədəbiyyat və şeir aləminə baş vermiş bir fəlakət kimi dəyərləndirirdilər.

Natəvan Qarabağ xanlığının ictimai-mədəni həyatında, Şuşa şəhərinin abadlaşdırılmasında fəal xidmətlər göstərmiş, bir sıra xeyirxah tədbirlər həyata keçirmişdir. Maarifin yayılmasına, əhalinin ictimai-mədəni səviyyəsinin yük-

səldilməsinə çalışaraq, həmvətənlərinin elmdən bəhrələnməsinə həssaslıqla yanaşaraq məktəblərin, mədəni ocaqların açılmasına, körpü və yolların salınmasına, məscidlərin tikilməsinə, köhnə binaların təmirinə yaxından köməklik göstərmişdir. Şairənin xeyirxahlığından onun ölümü münasibətilə "Tərcüman" qəzetində ona həsr edilmiş bir yazıda bu cür bəhs edilirdi: "Xurşidbanu füqəraya ziyadə mərhəmət edən və xeyli təsisati-xeyriyyəyə əl uzadan xanım idi. Müsəlmanların maarifinə dəxi həmiyyət və müavinəti az deyildi".(1,525) Şuşanın sürətli inkişafı "Qafqaz" qəzetindən də yan keçməyərək, bu hadisə belə şərh edilirdi: "Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər varlanır".(10,50) Doğrudur, Natəvanın böyük əməyi və göstərdiyi şücaəti nəticəsində Qarabağın mədəni həyatında dirçəliş və oyanma günü-gündən daha çox hiss olunurdu. Şairənin ən böyük xidmətlərindən biri 1873-cü ilin payızında suyun çəkilişinə müvəffəq olmasıdır və bu hadisədən təsirlənən şair Mir Möhsün Nəvvab bu münasibətlə Xurşidbanunun nəcib əməlini təqdir edərək yazırdı:

Banu-ye ehsan o banu-ye cəhan
Qolbon-e qolzar-e İbrahim xan. (10,104)

Natəvan hovuz, hamam və buzxana düzəltdirmiş, şəhər əhalisinin istirahəti üçün bağ saldırmışdı. Şair Mir Möhsün Nəvvab həmin bağı dünyanın ən gözəl güşəsi adlandıraraq onun göz oxşayan gözəlliyini farca yazdığı şeirində belə tərif edirdi: "Hər tərəfdən gülabtək sular axır, məstlikdən nərgizin gözləri yuxuya dalır. Hər tərəfə əsən ətirlə dolu nəsim alma şaxələrini meynə ilə qucaqlaşdırır. Gönçələr öz çiplərini şaxələrdə həzin oxuyan bülbüllərə açır. Şəffaf sularla dolu olan hovuzlara baxanlar qəm və hüznlərini dağıdırlar. Gül, bülbül, çəmən və axan sular-hamısı həvəslə allaha zikr edir" (10,105)

Hər cümə günləri Xurşidbanu öz otağında yoxsul və kimsəsizləri qəbul edər, onlara ehtiyacı olanlar üçün ayrılmış vəsaitdən yardım göstərərdi. Onun şəxsi həkimləri də xəstələrə təmənnasız tibbi yardım göstərərdilər. Bu məqamı akademik Feyzulla Qasımzadə də xüsusi vurğulamışdır: "Natəvan nəcib, səxavətli bir qadın olub yoxsullara kömək etməkdən xoşlanırdı". (2,12)

Uburidə səri-bazarə çünki düşdü yolum,
Göründü çeşmimə bir çeşmə, abi-kövsərdir.

Əbəs yerə bu təvanəyə Natəvan dedilər.
Onun zəkası, gücü, şeiri dildə əzbərdir.
Təəccüb eyləmə Dərviş, cəlalına sən onun,
Deyirlər xan qızıdır, Xurşidbanu-
Münəvvərdir. (10,105)

Təzkirəçi Məhəmmədağa Müctəhizadə xalqın rifahı uğrunda varını əsirgəməyən şairənin əzəmətini səciyyələndirərkən qeyd edirdi: "Xurşidbanu şöhrətinin sədası Zöhra və Müştərinin qulağını kar etmiş, səxası kərəm əhlini paxıllıqdan əzab quyusuna salmışdır". (10,106)

Təəssüf ki, onun xeyirxah əməllərinə və ədəbi fəaliyyətinə başqa məna verənlər də tapılırdı. Misal olaraq, Q.Zakirin nəvəsi Abdulla bəy Asinin yazdığı "Dinlə, ey könül, mənim bu sözlərim hər məclisə töhfədir" misrası ilə başlanan həcvində Natəvanın şəxsiyyətinə vurulan ləkədən, başdan-ayağa təhrif edilən həyatından və nəcib əməllərinə riyakarlıq donu geyindirilməsindən bəhs etmək olar. Lakin, nə təqib, nə də iftiralar məğrur Xan qızını nəcib fikirlərindən döndərə bilmirdi.

F.Köçərli A.Asi tərəfindən Xan qızının həcv olunmasını belə şərh edirdi: "Asi kimi məhşur və alitəb şairdən böylə bir qism naşayistə əməlin baş verməsi cümləni heyrət və təəccübə saldı və hər yerdən ona cavab yazılıb, bədnam və bihörmət etdilər". (10,109) Təbii ki, Asinin belə bir hörmətli şəxsə, xüsusən də qadına həcv yazması dövrün maarifpərvər, mədəni adamlarının xeyli qəzəbinə səbəb olmuşdur. S.Ə.Şirvani ona yazdığı müxəmməsdə şairə yaraşmayan bu hərəkəti "namərdlik" adlandırmış, hünər və bacarıqda Natəvanın "əlli min oğlana dəydiyini", Asi kimi iradəsiz kişilərdən qat-qat yüksəkdə durduğunu söyləmişdir. Mənzumənin bir yerində şair, Seyid Hüseynə ərə getməsini Natəvana irad tutanları utandırmaq məqsədilə yazırdı:

Tapmısız eyb bunu ol gövhəri-yektadə
Ki, gedib Seyyidə namusunu vermiş badə.
Bu dəgil eyb, təfərrüc eləsən mənada.
Gər bu xanzadə isə, ol biri də şahzadə.
Həqq ki, aləmi-mənada bu iş canə dəyər.
(10,109)

Şairənin bu cəsarətli addımı sanki əsrlərdən bəri davam edən köhnə feodal məişətinin paslanmış ənənəsinin məhvinə səbəb olmuşdur.

Gəncə şairlərindən Mirzə Mehdi Naci də şeirində Asini rüsvay edir, Natəvandakı yüksək mənəvi və əxlaqi keyfiyyətləri ona qarşı qoyaraq yazıdı:

Zən hesab edibən cürət edib həcv dedin,
Genə aslan balasıdır, demə ona ki, zən əst.
(10,110)

Naci haqlı olaraq Natəvanın mədəni təşəbbüsünə rəğbətini bildirmiş, şairənin rəqiblərinə xəbərdarlıqla yazdığı aşağıdakı misrada Xurşidbanunun diribaş, zirək və cəsarətli olmasına işarə edirdi:

Demə ki, acizdir gəlməz əlindən bir zad.
Nütfeyi-şiri-jəyandır, genə düşmən basan əst.
(10,110)

Başqa bir həcvində yenə M.M.Naci vaxtilə Asinin atası Əlibəyə Natəvanın və valideynlərin etdiyi əvəzsiz yaxşılıqları yada salaraq söyləyirdi:

Çün eylədi o, Xan qızının haqqını pamal,
Vursun o çörək iki cahan beyninə mismar.
(10,110)

Şair Mir Möhsün Nəvvab "İbrahim xanın nəvəsi Xurşidbanunun tərifi və bəzi həcv yazan əbləhlərə cavab" adı ilə başlanan mənzuməsində Xan qızının Qarabağda gördüyü abadlıq işlərini, xeyirxah əməllərini alqışlayaraq Natəvan kimi pak bir vücuda dua etmək əvəzinə, Asini içirdib şirnikləndirənlərə müraciətlə deyirdi:

Eşşək ol kəsdir ki, təsdiq edə bu biməzəni,
Edə şirkət ona bari günahı çəkdilər əst.
(10,111)

Bu minvalla şairlər Natəvanın təmiz adına ləkə vurmağa çalışanları susmağa, etdikləri əməldən utanmağa məcbur etmişlər.

Qarabağda elə bir ictimai-mədəni tədbir, əlamətdar hadisə olmurdu ki, Natəvan orada iştirak etməsin. Şairə hər zaman öz həyatını dövrün ictimai tələblərinə uyğun qurmağa çalışmış və gördüyü bütün işlər öz keyfiyyəti ilə də seçilirdi. Nümunə olaraq Natəvanın başçılığı ilə bəslənən Qarabağ cinsli "Əlyetməz" və "Meymunu" adlanan köhlənlər 1867-ci ildə Parisdə keçirilən ümumdünya sərgisində, 1869-cu ildə isə Moskva bədii-sənaye sərgisində birincilik qazanmasını, qızıl medala və fəxri fərmana layiq görülməsini göstərmək olar.(10, 48-49) Məhz bu səbəbdən Natəvanı XIX əsrin istedadlı şairi, rəssamı kimi tanımaq azdır, onun ictimai xidmətləri də bədii yaradıcılığı qədər dəyərlidir və böyük önəm kəsb edir.

Natəvanın Qarabağın ictimai-mədəni həyatında oynadığı aparıcı rolundan o vaxt Tiflisdə çıxan məcmüələrdən birində çar və onun arvadı ilə görüş təntənəsində Xan qızı Xurşidbanunun iştirakı belə təsvir edilmişdir: "Qarabağ xanının qızı əlahəzrətlərə təqdim olunarkən milli paltar geyinmiş, belinə qızıl toqqa bağlamış, başına iri daş-qaşlarla bəzənmiş çıqqa taxmışdı. Xan qızı əlahəzrətə gözəl toxunmuş güləbətin xalça, əlahəzrət xanıma isə atı üçün yun örtük bağışladı".(10,131)

X.Natəvanın Qarabağ üçün nə dərəcədə əziz və qiymətli bir sima olması şair Mirzə Həsən Yüzbaşov qələmindən də yan keçməmiş, şairəni obrazlı ifadələrlə tərənnüm edərkən, onu meyə, Şuşanı isə piyaləyə bənzədərək meyə üstünlüyünü ifadə etmişdir:

Sən Şişə içində türfə cansan,
Həm cismilə can üçün təvansan.
Sənsiz nədi Şişənin nəmudi,
Gəlməz nəzərə onun vücudi?!
Mey olmasa şişə adlanarmı?
Bir kəs onu mütləqa tanırmı?
Gülşən gül ilə olubdu dilşad,
Gül olmasa, kim edər onu yad? (10,132)

Son olaraq fikirlərimizi Xurşidbanunun Qarabağın intibahındakı böyük rolundan, onun nə qədər əvəzsiz və dəyərli olmasından, xeyirxahlığından, böyük xidmətlərindən bəhs edən görkəmli tatar alimi və maarifçisi Rzaəddin İbn Fəxrəddinin 1904-cü ildə nəşr etdirdiyi "Məhşur xatunlar" əsərindəki düşüncələri ilə bitirmək istərdik. Natəvanın şəxsiyyəti, istedadı barədə hörmətlə danışmış, onun xeyriyyəçiliyinin bütün imkanlı müsəlman xanımlarına ibrət olmasını arzuladığını bildirən alim qeyd edirdi: "Zirək, aqilə olub, türki və farsi, həm də ərəbi

bilir və əksər ömrini mütaliə ilə keçirir idi. Təbiəti-şeiriyyəsi həm olub ağızlarda bir xeyli əsəri qalmışdır. Füqarəyə mərhəmətli olub ümum faidəsi üçün mal sərf etməkdən ləzzətlənir olmuşdur. (İslam knyaginələrinə ibrət!)". (2,12)

Xurşidbanu Natəvan poeziyası bu gün də bəşəri arzularla, təmiz və pak hisslərlə, yüksək əməllərlə yaşayan insanların qəlbini, ruhunu oxşayır, onların mənəvi dünyasının zənginləşməsinə xidmət edir. Fikirlərimizi İlyas Əfəndiyevin Natəvan haqqında dediyi düşüncələri ilə bitirmək istərdik: "Azərbaycan ədəbiyyatını, əgər, bir gülüstana bənzətmək lazım gələrsə, Natəvan bu gülüstan içində özünəməxsus zərif ətri ilə insanı sərməst edən bir bənövşədir". (4,16)

### Ədəbiyyat siyahısı


1. Azərbaycan ədəbiyyatı tarixi: (VI cilddə, IV cild), Bakı: Elm, 2011, 523-541 səh.
2. Azərbaycan Respubliksı Mədəniyyət və Turizm Nazirliyi. Neçin gəlməz, Bakı: Təhsil, 2012, 159 səh.
3. Cəfərzadə Əzizə. Natəvan haqqında hekayələr, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 58 səh.
4. Əfəndiyev İlyas, Hüseyn Mehdi. Natəvan, Ədəbiyyat qəzeti, 31 may 1942
5. Əfəndiyev İlyas. Xurşidbanu Natəvan, Bakı, 434-506 səh.
6. Əlioğlu Paşa. Natəvanın iki qeyri-mətbu şeiri, 525-ci qəzet, 8 sentyabr 2012, 25 səh.
7. Əlioğlu Paşa. Natəvanın iki naməlum şeiri, Təzadlar qəzeti, 6 sentyabr 2012, 10 səh.
8. Əliyev Ziyadxan. Xan qızının "Gül dəftəri", 525-ci qəzet, 8 sentyabr 2012, 24-25 səh.
9. Kərimi Məhəmməd Rza (Tərcüməçi: Afət Rüstəmova). Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar, Bakı: Zərdabi, 2014, 96 səh.
10. Məmmədov Bəylər. Xurşidbanu Natəvan, Bakı: Yazıçı, 1983, 158 səh.
11. Məmmədov Bəylər. Natəvanın şair qohumları, Bakı: Yazıçı, 1989, 86 səh.
12. Müznib Əliabbas. Natəvan Xurşidbanu, Bakı: Elm və Təhsil, 2012, 129 səh.
13. Seyidov Fazil. Xurşidbanu Natəvan, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1956, 76 səh.
14. Şərif Hüseyn. Bir hədiyyənin tarixçəsi, Azərbaycan gəncləri qəzeti, 26 iyul 1984, 3 səh.
15. Vurğun Səməd. Xurşud Banu Natəvan, Pravda qəzeti, 23 may 1940


### Резюме

**Саадет Гараева**

### Место и роль Хуршидбану Натаван в истории литературной среды Азербайджана


В статье говорится о большой и неоценимой роли Хуршидбану Натаван в возрождении Карабаха, а также о ее ценных и значимых заслугах. При этом также упоминается значительный вклад Хуршидбану Натаван в распространение образовании, науки, повышении социального и культурного уровня населения.

Хотим отметить, что в статью включен также цикл стихотворений, посвященных Хуршидбану Натаван во время ее болезни и смерти, который свидетельствует об уважении и заботе, которую поэтесса завоевала среди ученых и интеллигенции. Это является ярким доказательством значимости роли, которую сыграла поэтесса в культурной и общественной жизни Азербайджана, и того, насколько незаменимы и ценны оставленное ею наследие.


***Ключевые слова:*** *Поэзия, образование, нравственные качества, литература, противоречия*

**Summary**

**Saadat Garayeva**

**Khurshidbanu Natavan – her place and role in the history of Azerbaijani thought**

The article talks about the great and invaluable role played by Khurshidbanu Natavan in the renaissance of Karabakh, how valuable and precious she is, and the services she rendered. At the same time, Khurshidbanu Natavan's contributions to the development of education, science, and social and cultural development are also mentioned.

We would like to note that in the records of the poetess who gained knowledge and intellectuals, a series of poems dedicated to Khurshidbanu Natava during her potential period, or at the time of the poetess' death, were also reflected. Once again, it is obvious and valuable that the role played by the poetess in the cultural and social life, and how priceless the traces she left are.

***Keywords:*** *Poetry, education, moral qualities, literature, contradictions.*